# Vətən şəhidlərlə var olur!

**"Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsinin 30 ili tamam olur. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qalxan xalqın iradəsini qırmaq, onu susdurmaq üçün Bakıda dinc əhaliyə qarşı misli görünməmiş qətliam törətdi. Lakin bu qanlı cinayət insanları müstəqillik yolundan döndərə bilmədi, əksinə, milli azadlıq hərəkatının alovunu daha da qüvvətləndirdi. Sovet rəhbərliyi tərəfindən həyata keçirilən təcavüzkarlıq aksiyası, məqsədli şəkildə təşkil edilən terror aktı xalqa sarsıdıcı mənəvi-psixoloji zərbə vurmaq məqsədini yerinə yetirə bilmədi.**

Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid oldu, 744 nəfər yaralandı və xəsarət aldı, 841 nəfər qanunsuz olaraq həbs edildi. Nəticədə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozuldu.

Bakıdakı 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin şəkildə pisləyib, dinc əhaliyə qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya adlandırdı. Hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə ulu öndərin bu bəyanatı onun siyasət aləminin dahi şəxsiyyəti və böyük vətənpərvər olduğunu bir daha təsdiq etdi.







Milli azadlıq hərəkatını boğmaq, xalqı susdurmaq məqsədilə mərkəz Dağlıq Qarabağ problemini ortaya atmışdı. Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılmasına erməni separatçılarının mərkəzi hökumətlə birləşərək irəli sürdüyü bu cəhd ilk dəfə deyildi ki, edilirdi. Zaman-zaman belə cəhdlər olmuş, amma erməni daşnaklarının bu məqsədi reallaşa bilməmişdi. Mixail Qorbaçovun Sov.İKP MK-nın Baş katibi vəzifəsinə gəlməsindən sonra, Heydər Əliyevi hökumətdəki məsul rəhbər vəzifədən uzaqlaşdırmaqla "yenidənqurma" və "aşkarlıq" şüarları ilə ölkəni xaos və anarxiyaya sürükləməsi nəticəsində belə bir imkan yarandı. 30 il əvvəl Bakıda törədilən bu faciə də həmin xaosun, siyasi özbaşınalığın nəticəsi idi və onun ağır yaraları bu gün də xalqımızın qan yaddaşındadır.

Qanlı Yanvar hadisələri ulu öndər Heydər Əliyevin doğma Azərbaycanına övladlıq sevgisini, qəlbən bağlılığını bir daha təsdiq etdi, xalqının taleyinə və başına gətirilən müsibətlərə can yandırdığını göstərdi. O, ciddi təqiblərə məruz qaldığı bir vaxtda imperiya mərkəzi Moskvada bu haqsızlığa etiraz səsini ucaltdı. Azərbaycana qayıtdıqdan sonra da, xüsusən də Azərbaycan dövlətinə başçılıq etdiyi ilk günlərdən 20 Yanvar hadisələrini reallığa uyğun şəkildə qiymətləndirməklə həyata keçirdiyi tədbirlər onun rəhbərliyi altında atıldı. Heydər Əliyevin təkidilə Milli Məclisdə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi. Parlamentin bununla əlaqədar olaraq keçirdiyi xüsusi sessiyasında hadisələrin əsl səbəbləri və günahkarların adları açıqlandı. Bunun nəticəsi olaraq, elə həmin sessiyada Yanvar faciəsinin xalqımızın tarixində böyük siyasi əhəmiyyətinin təsdiqi və Azərbaycanın azadlığı uğrunda həyatını qurban vermiş şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə Bakıda xatirə kompleksinin yaradılması qərara alındı. 20 Yanvar şəhidlərinin ailələrinə dövlət qayğısının göstərilməsi, həmçinin həmin hadisələrdə sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı məsələsinin həlli də Heydər Əliyevin faciə qurbanlarının xatirəsinə böyük ehtiram və diqqətinin nəticəsi idi. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar hadisələrində yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olanlara "20 Yanvar şəhidi" fəxri adı verildi.

Ulu öndərin layiqli davamçısı, siyasi və ideya varisi Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, Qarabağ müharibəsi veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə möhkəmləndirilir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edildi. 20 Yanvar faciəsi qurbanlarının və torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərdə həlak olanların əbədi uyuduğu Şəhidlər Xiyabanı dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə tam təmir edilərək yenidən quruldu.

20 Yanvar xalqımızın yaddaşında 30 ildir yaşayan qanla yazılmış tarixdir. Yaxın keçmişimizin unudulması mümkünsüz olan, mahiyyəti ildən-ilə daha aydın dərk edilən acı, həm də şərəf, qürur doğuran reallığı, hər sətri daş-qaya üzərinə həkk olunmuş yaxın tariximizin səhifəsidir. Bu azadlıq mücadiləsi tarixin vərəqələrində Bakı metropolitençilərinin həmin gecə göstərdikləri fədakarlıq, hünər nümunələrindən bəhs edən qanlı sətirlər də vardır.

Sovet qoşunlarının şəhərə daxil olduğu vaxt metronun sonuncu qatarı cədvəl üzrə depoya yollanmalı idi. Yeraltı nəqliyyat iş gününü başa vurmuşdu. Şəhərin şimal qapısı sayılan XI Qızıl Ordu meydanında tanklar barrikadaları yarıb, mərkəzə doğru irəliləməyə başladıqda, qatillərin əlindən canını qurtaran insanlar o vaxt həmin meydanın adını daşıyan metro stansiyasına (indiki - "20 Yanvar") sığınacaq yeri kimi pənah apardılar. Artıq ilk yaralılar da göründü. Platforma üzərində al qan izləri artırdı. Ağrıdan zarıyan, kömək diləyən insanları xəstəxanaya çatdırmaq üçün metro ən rahat vasitə idi. Yuxarıda təcili yardım maşınları belə, atəşə tutulur, yardıma ehtiyacı olanlara yaxınlaşmaq olmurdu. Belə bir vəziyyətdə metropoliten rəhbərliyi qatarların səhərə kimi işləməsi barədə qərar qəbul etdi. Qanlı Yanvar gecəsində metropolitençilər həyatlarını təhlükə altına ataraq, sübhədək yaralıları, meyitləri qorxu bilmədən təcili surətdə xəstəxanalara çatdırdılar, ölüm saçan güllələrdən qaçanları qorudular. Bəlkə də metropolitençilər o gecə səhərə qədər iş başında olmasaydılar, hadisələrin tüğyan etdiyi ərazilərdə yerləşən "Koroğlu" (o vaxt - "Əzizbəyov"), "İçərişəhər" (o vaxt - "Bakı Soveti"), xüsusən "20 Yanvar" (o vaxt - "XI Qızıl Ordu meydanı") stansiyaları ətrafında insanların harayına yetişməsəydilər, öldürülənlərin sayı dəfələrlə çox olardı. Sonrakı matəm günlərində də təzyiqlərə baxmayaraq, Bakı metropoliteni fəaliyyətini dayandırmadan xalqın yanında oldu. O günlərdə Bakıda əhalinin nəqliyyata olan tələbatını ödəyən əsas vasitə metropoliten idi.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycan tarixinə şanlı və parlaq səhifə yazdılar, xalqın milli azadlığına, müstəqilliyinə yol açdılar...

O günlərin canlı şahidi, neçə-neçə insan həyatının xilaskarı olmuş metropolitençilər bu gün də 20 Yanvar gecəsinin qorxulu xatirələrini qəlbində yaşadır, yaddaşlardan silinməyəcək bu azadlıq hərəkatında həlledici tarixin hər il xüsusi olaraq qeyd edilməsi Azərbaycanın müstəqilliyinin əbədi olmasının zəruriliyini bir daha hər kəsə aşılayır, tək metropolitendə deyil, bütün ölkədə qeyd olunan bu gün əbədi azadlığımızın rəmzidir.

20 Yanvar-Ümumxalq Hüzn Gününə metropoliten hər il xüsusi ovqatla hazırlaşır. Stansiyalara qərənfillər düzülür, gün ərzində matəm gününün ruhuna uyğun musiqi parçaları səsləndirilir. "20 Yanvar" stansiyasında isə hazırlıq xüsusi tədbirlərlə müşayiət olunur, gül kompozisiyası tərtib edilir. Saat 12:00-da metropoliten stansiyalarında da, ölkə üzrə bütün nəqliyyat vasitələrində olduğu kimi, qatarlardan bir dəqiqəlik fit səsi ucalır. Bunun üçün xətdə olan bütün qatarlar stansiyalara çıxarılır. Metropolitenin rəhbər heyəti, kollektivin nümayəndələri, veteranlar qanlı faciənin qurbanlarının xatirələrini bir dəqiqəlik sükutla yad edirlər.

Metropolitençilərin anım tədbirləri Şəhidlər Xiyabanının ziyarətlə başa çatır. Həmin məzarlıqda "Bakı Metropoliteni" QSC-nin əməkdaşları da əbədi uyuyur. 30 il əvvəl Bakıya yeridilən cəza dəstələrinə sinə gərib, "Azadlıq" hayqırtısı ilə yumruğunu düşmənə silkələyən istiqlal mücahidləri arasında metropolitençilər də az deyildi. Onlardan ikisi üçün yanvarın o gecəsi sonuncu oldu. "Nərimanov" elektrik deposunun çilingəri İlqar Qarayev və metro inşaatçısı Əflatun Kazımovun ailələrində nigaran gözlər yollarda qaldı. Onlar bir gün əvvəl tərk etdikləri evin qapısından bir daha daxil olmadılar.

Ötən illər ərzində metro istismarçıları və inşaatçılar hər iki şəhidi yaddan çıxarmadılar, azadlıq fədailərinin ailələrinə baş çəkdilər. Kollektiv öz Şəhid ailələrinin hər bir müşkülünü qayğı ilə qarşıladı, onlara lazımi köməyi göstərdi. İlqar Qarayevin iş yoldaşları, Metropoliten Həmkarlar İttifaqı Komitəsinin üzvləri şəhid anasının sağlığında onunla əlaqəni kəsmədilər. Gözlərinin yaşı qurumayan şəhid anasına əllərindən gələn yardımı göstərdilər.

Əflatun Kazımov "Bakıtuneltikinti"nin 3 saylı Tunel Tikintisi İdarəsində körpülü kran maşinisti idi. "20 Yanvar" günlərinin foto salnaməsində bir şəkil çoxlarının yaddaşına əbədi həkk olub: qərənfil örtüklü tabut qarşısında əlində şəhid atasının şəklini tutmuş 4-5 yaşlı oğlan uşağı ətrafda nələrin baş verdiyini dərk etmək istəyini ifadə edən baxışlarını naməlum bir nöqtəyə zilləyib... O oğlan indi 2 oğul atasıdır, hazırda metropolitençilərin cərgəsindədir.

"Bakı Metropoliteni" QSC-nin rəhbərliyi Vətən uğrunda canını fəda edən metropolitençi şəhidlərin xatirəsini daim əziz tutur, onların ailə qayğılarını diqqətdə saxlayır, dəstəyini əsirgəmir. Metropoliten İşçiləri Həmkarlar İttifaqının təşkilatçılığı ilə hər il Qanlı 20 Yanvar şəhidlərinin ailə üzvlərinə, eləcə də o müdhiş gecədə yaralanaraq əlil olmuş metropolitençi Mansur Qocayevə baş çəkirlər.

Vətən şəhidlərlə var olur! İllər ötəcək, nəsillər dəyişəcək, lakin Vətən övladlarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır!

**Hidayət MƏMMƏDOV,**
**"Bakı Metropoliteni" QSC-nin sədr müavini.**